AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**ƏHMƏD SÜLEYMAN OĞLU HƏTƏMOV**

# KARATE ÜZRƏ BEYNƏLXALQ SƏVİYYƏLİ İDMANÇILARIN HAZIRLANMASININ YENİ PEDAQOJİ TEXNOLOGİYALARI

5804.01 – ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi pedaqogika" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **İramin Namaz oğlu İsayev**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*professor*

**Rəsmi opponentlər**: **Məmməd Abbas oğlu Qarayev**
*biologiya üzrə elmlər doktoru,*
*professorı*

**Vidadi Paşa oğlu Bəşirov**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*dosent*

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının "Sosial elmlər" kafedrası

Müdafiə « _29___» _noyabr__2016-cı il tarixdə saat $14^{00}$ -da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD.02.061 dissertasiya Şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

**Ünvan:** Az- 1000, Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «____» oktyabr 2016-cı ildə göndərilmişdir.

Dissertasiya şurasının
elmi katibi: **K.R.Quliyeva**
pedaqogika üzrə fəlsəfə doktoru,
dosent

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan dövlətinin müasir təhsil sistemində qarşıya qoyduğu qlobal məqsədlərdən biri də gənc nəsli öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə və demokratik prinsiplərinə, milli mənəvi və ümumibəşəri dəyərlərə sadiq, geniş dünyagörüşlü, yaradıcı düşünən, "sağlam bədənli və sağlam ruhlu" vətəndaş və şəxsiyyət kimi formalaşdırmaqdan ibarətdir. Çünki ölkəmizin gələcək inkişafı gənc nəslin mənəvi, intellektual səviyyəsi ilə yanaşı, onların fiziki sağlamlığından daha şox asılıdır.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafına dair 2013-2020-ci illər üzrə Milli Strateqiya bədən tərbiyəsi və idmanın inkişafını dövlətin, eləcə də ölkədə fəaliyyət göstərən digər dövlət qurumlarının qarşısında duran mühüm məqsəd kimi qoyur. Son illər respublikamızda idmanın kütləviliyinə diqqətin bariz nümunəsi ölkədə idman komplekslərinin tikintisinin geniş vüsət almasıdır. Ölkəmizdə inşa edilən bir çox idman qurğuları, stadionlar, hovuzlar, iri şəhərlərdə olimpiya bazaları və s. möhtəşəm quruculuq işləri, gənc nəslin fiziki hazırlığının qayğısına qalmağın nəticəsi kimi qiymətləndirilməlidir.

Elə bu səbəbdəndir ki, Azərbaycan idmançıları olimpiya oyunları, Avropa və dünya birinciliyində ölkəmizi layiqincə təmsil edərək, bayrağımızı yüksəklərə qaldırmış, himnimizi səsləndirməklə dünya ölkələri içərisində respublikamızı tanıtmışdır. Fərəhli haldır ki, bu iş yüksələn xətt üzrə inkişaf etməkdə davam edir. Şübhəsiz, bu göstəricilər Ümummilli lider Heydər Əliyevin idmana dövlət səviyyəli bir strateji məsələ kimi baxmasından irəli gəlirdi.

Bu strateji xəttin ölkə Prezidenti İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməsi, Heydər Əliyev ənənələrinə sadiklik nümunəsi kimi dəyərləndirməklə, yüksək dərəcəli peşəkar idmançıların kəmiyyət və keyfiyyət göstəricilərinin daha da yüksəldilməsi istəyinin reallaşdırması kimi dərk olunur. Respublikamızın dünyada idman öıkəsi kimi tanıdılması ölkəmizdə dünyamiqyaslı oyunların keçirilməsi üçün şərait yaradır. Bunu biz, ölkə Prezidenti İlham Əliyevin məqsədyönlü fəaliyyətinin nəticəsi kimi Avropa İdman Oyunlarının 2015-ci ildə ilk dəfə Azərbaycanda keçirilməsinə müvəffəq olmasında görürük.

Qeyd etmək lazımdır ki, ölkəmizdə kütləvi bədən tərbiyəsi ilə yanaşı, fərdi və kollektiv idman növləri üzrə peşəkar və yüksək dərəcəli idmançılar formalaşmışdır. Açıq demək lazımdır ki, peşəkar səviyyəsi ilə fərqlənən fərdi idman növü ilə məşğul olan tanınmış idmançıların olmasına

baxmayaraq, komanda idman növləri üzrə idmançıların peşəkarlıq səviyyəsi aşağıdır. O cümlədən karate idman növündə də peşəkarlıq baxımından müəyyən çatışmazlıqlar özünü göstərir. Deməli, bu idman növündə özünü göstərən qüsurların aradan qaldırılmasına və idmançıların peşəkarlıq səviyyəsinin yüksəldilməsinə böyük ehtiyac vardır.

Lakin fərdi və komanda yarışlarında stabil və yüksək yarış nəticələrinin əldə olunması karate üzrə beynəlxalq səviyyəli idmançıların hazırlanmasını, bu isə öz növbəsində yeni elmi əsaslandırılmış pedaqoji texnologiyaların təlim-məşq prosesinə cəlb olunmasını tələb edir.Məhz buna görə də təlim-məşq, yarışqabağı və yarış dövrlərində beynəlxalq səviyyəli karateçilərin hazırlanması problemləri böyük elmi-pedaqoji, metodiki və praktiki əhəmiyyət kəsb edir. Karatenin inkişafının indiki mərhələsində mötəbər yarışlarda yüksək idman nəticələri elmi-texniki tərəqqi nailiyyətlərindən istifadə ilə əldə oluna bilər. Azərbaycanda durmadan nüfuzu artan karatenin yüksək hazırlığı məhz bu zəmində həyata keçirilə bilər.

Beləliklə, beynəlxalq idman yarışlarında yüksək nəticələr göstərilməsi və qaliblər sırasına çıxmağın vacib şərtlərindən biri əsas yarışlara - Avropa çempionatları, dünya birincilikləri və Olimpiya oyunlarına yüksək ixtisaslı idmançıların hazırlanması texnologiyalarının təkmilləşdirilməsidir.

Hazırda Şərq idman növləri bütün dünyada, o cümlədən Azərbaycanda da geniş şöhrət tapmışdır, onların bir sıra növləri: dzyudo, tekvando, karate üzrə dünya və Avropa çempionatları keçirilir. 2016-ci ildən bu idman növləri artıq Olimpiya oyunlarının proqramına daxil ediləcəkdir.

Mütəxəssislərin fikrincə,Şərq idman növləri üzrə yarış fəaliyyətinin əsas fərqi ondan ibarətdir ki, burada bütün texniki-taktiki hərəkətlər və ya fəndlər çox yüksək sürətlə yerinə yetirilir və bu, reaksiya sürəti və əsəb-əzələ aparatının sürət imkanları kimi keyfiyyətlərin prioritetliyindən danışmağa imkan verir.Şərq idman növlərində idmançıların hazırlanmasının mövcud sistemi və məşqlərdə yüklənmə intensivliyinin təhlili əlbəyaxa döyüşlərin Olimpiya növləri üzrə peşəkar hazırlığı sistemindən əhəmiyyətli fərqləndiyini göstərir.

Təcrübi olaraq davamlı və mərkəzləşmiş hazırlığın və mükəmməl gündəlik məşq sisteminin olmaması ona gətirib çıxarır ki, məşq vaxtının əksər hissəsində (80-85%), hazırlıq mərhələsindən asılı olmayaraq, bütün idmançılar maksimum sürətli rejimlərdə texniki-taktiki ustalığı

təkmilləşdirirlər. Submaksimal və maksimal intensivlikli rejimlərdə məşq dərslərinin qurulması da böyük müsbət səmərə vermir.

Ona görə də 17-20 yaşda yüksək nəticələrə nail olmuş idmançılar sonralar texniki-taktiki hərəkətlərin səmərəliliyivə böyük yarış təcrübəsinə malik olmalarına baxmayaraq, dünya birinciliklərində daha gənc olan xarici idmançılara uduzurlar.Bu fakt Şərq əlbəyaxa döyüşlərin müxtəlif növlərində müşahidə olunur və onunla izah olunur ki, idmanın bu növlərində mərkəzləşmiş hazırlığın peşəkar sistemi yoxdur, bölmə və klub məşqləri daim, hər gün və müntəzəm xarakter daşımır.

Deməli, təlim-məşq və yarışlara hazırlıq mərhələlərində yüksək ixtisaslı idmançıların məşq yüklərinin düzgün qurulması və karatedə yüksək nailiyyətlərin əldə olunması pedaqogika elmi, o cümlədən bədən tərbiyəsi, idman nəzəriyyəsi və təcrübəsi üçün aktual və mühüm əhəmiyyət kəsb edən bir problemdir.

**Mövzunun öyrənilmə səviyyəsi**. Ümumi pedaqogika, bədən tərbiyəsi, idman nəzəriyyəsi və təcrübəsi sahəsində ən mühüm tədqiqatlar Moskva və Peterburq pedaqoji elm və təhsil mərkəzlərinin nümayəndələrinə məxsusdur. Bir sıra sovet, rus və digər xarici alim və mütəxəssislər öz fundamental əsərləri ilə bu elm və təhsil sahələrinə misilsiz töhfələr vermişlər.

Azərbaycan alimlərindən bu sahədə prof. Y.Talıbov, prof. Ə.Ağayev, prof. N.Kazımov, prof. A.Mehrabov, prof. V.Xəlilov, prof. F.Rüstəmov, prof. Y.Kərimov, prof. İ.Cəfərov, prof. A.Abbasov, prof.Ə.Paşayev, prof. A.Həsənov, prof. G.Hüseynzadə, prof. H.Əhmədov, prof. L.Qasımova, prof. O.Həsənov, prof. M.Mahmudov, prof. P.Əliyev, prof. R.Hüseynzadə, prof. Ə.Abbasov, bədən tərbiyəsi və idman nəzəriyyəsi və təcrübəsi sahəsində isə prof. R.Əliyev, prof. D.Quliyev, dos.İ.Musayev və digərlərinin işləri diqqəti cəlb edir.

Bu tədqiqatlarda ümumilikdə pedaqogika nəzəriyyəsi və təcrübəsinin ayrı-ayrı sahələrində gedən proseslərə dair müəyyən qiymətli məlumatlar əldə edilmişdir. Lakin son onillikdə bədən tərbiyəsi və idman nəzəriyyəsi və təcrübəsi sahəsində problemlərin həllinə, xüsusən də karate döyüşlərinin metod, vasitə və texnologiyalarına dair işlərə demək olar ki rast gəlinmir.

**Tədqiqatın obyekti** – karate üzrə beynəlxalq səviyyəli idmançıların hazırlanması prosesidir.

**Tədqiqatın predmeti**–karate üzrə beynəlxalq səviyyəli idmançıların hazırlanması prosesində yarış nəticələrini yüksəltməyə imkan verən yeni pedaqoji texnologiyalardır.

**Tədqiqatın fərziyyəsi**. Karate üzrə idmançıların hazırlanmasının mövcud sistemi və yarış təcrübəsinin təhlili əsasında belə bir fərziyyə irəli sürülür ki, yarış fəaliyyətinin səmərəliliyi sürət-güc və xüsusi hazırlıq vasitələri, habelə fənd kombinasiyalarının rasional nisbəti əsasında təmin edilə bilər. Bu əsasda beynəlxalq səviyyəli idmançıların hazırlanmasının yeni pedaqoji texnologiyaları, metod, vasitə və proqramları işlənilib tətbiq edilərsə, bu texnologiyalar funksional, fiziki və xüsusi hazırlığın sərhədlərini genişləndirməyə, yarış nəticələri və etibarlılığını yüksəltməyə imkan yaradar.

**Tədqiqatın məqsədi** yeni pedaqoji texnologiyaların işlənməsi əsasında karate üzrə beynəlxalq səviyyəli idmançıların hazırlanması proseslərinin təkmilləşdirilməsi və yarış fəaliyyətinin nəticəliliyi və səmərəliliyinin yüksəldilməsidir.

Bu məqsədə nail olmaq üçün işdə aşağıdakı elmi və təcrübi **vəzifələr** irəli sürülmüşdür:

- dünyada və Azərbaycanda karatenin təşəkkül və inkişaf tarixinin, problemə müxtəlif metodoloji baxışların, təlim-məşq prosesinin pedaqoji və metodiki cəhətlərinin təhlili;
- karatedə təlim-məşq prosesinin təşkilinə pedaqoji tələblərin və yarışlara hazırlığın metodoloji xüsusiyyətlərinin araşdırılması;
- yarış fəaliyyətinin səmərəliliyinə sürət-güc, xüsusi hazırlıq vasitələri və fənd kombinasiyalarının təsirinin müəyyən edilməsi;
- funksional, fiziki və xüsusi hazırlığın təkmilləşdirilməsi texnologiyalarının işlənməsi;
- riyazi-statistik metodlar əsasında karateçilərin optimal, stabil və etibarlı təlim-məşq və yarış nəticələrinin əldə edilməsi;
- işlənmiş təklif və tövsiyələrin təlim-məşq və yarış təcrübəsində reallaşdırılması.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- təlim-məşq prosesində karate üzrə idmançılar üçün inteqral sürət-güc və texniki-taktiki fənd kombinasiyalarının yerinə yetirilməsinin yeni proqramları işlənmişdir;
- karate idmançılarının fiziki və xüsusi sürət-güc fənd kombinasiyalarının yerinə yetirilməsi hazırlığının qiymətləndirilməsinə yeni metodik yanaşma təklif olunmuşdur;
- beynəlxalq səviyyəli karateçilərin hazırlanmasının müxtəlif mərhələlərində ümumi fiziki, sürət-güc və fənd kombinasiyalarının strukturu və intensivliyi müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Karate üzrə beynəlxalq səviyyəli idmançıların hazırlanması prosesində yeni pedaqoji texnologiyalar əsasında fənd kombinasiyalarından istifadənin prinsipləri nəzəri cəhətdən əsaslandırılmışdır.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqatların nəticələri aşağıdakı aspektlərdə beynəlxalq səviyyəli karateçilərin hazırlanması prosesində istifadə oluna bilər:

- yarış fəaliyyətinin səmərəliliyinin təyini və karateçilərin ümumi, fiziki və güc-sürət fənd kombinasiyaları hazırlığının kompleks qiymətləndirilməsində;
- yarışlarda uğurlu çıxışların üstün amili kimi güc-sürətli fənd kombinasiyalarının təkmilləşdirilməsində;
- beynəlxalq səviyyəli karateçilərin hazırlığı prosesinin təşkilində və məşqlərin aparılması proqramlarının tətbiqində;
- məşq dövründə və əsas yarışlarda karate yığma komandalarının yarışqabağı məşqlərinin planlaşdırılması praktikasında.

Müdafiəyə çıxarılanəsas **müddəalar** bunlardır:

- karate idmanında səmərəli təlim-məşq və yarış fəaliyyətinəəsas tələblər formalaşdırılmışdır: hücum hərəkətlərinin minimal vaxt intervalı17,0 $\pm$ 3,0 san., texniki-taktiki fənd arsenallarınınhəcmi 16,0 $\pm$ 4,0 san. müəyyən edilmişdir;
- bir məşq dərsi şəraitində güc-sürətli fənd kombinasiyaları və texniki-taktiki vasitələr əsasında hazırlıq prosesinin qiymətləndirilməsi metodikası işlənmişdir;
- təlim-məşq və yarışlara hazırlıq mərhələləri üzrə karateçilərin hazırlığının əsas vasitələri, tapşırıqların həcmi və intensivliyinin inteqral təkmilləşdirilməsi metodu təklif edilmişdir.

**Tədqiqat metodları və nəticələrin dürüstlüyü.** Dissertasiya işində qarşıya qoyulmuş məsələlər təlim-məşq, yarışqabağı hazırlıq və real yarış şəraitlərində aparılmış nəzəri və eksperimental tədqiqatlar əsasında həll edilmişdir. Tədqiqatların aparılması üçün müasir idman avadanlığı və cihazlar, o cümlədən kompyuter texnologiyalarından istifadə edilmişdir.

Karateçilərin təlim-məşq prosesləri və parametrlərinin optimallaşdırılması üçün riyazi-statistik, o cümlədən eksperimentlərin planlaşdırılması istifadə edilmiş və kompyuter texnikasının tətbiqi ilə alınmış məlumatların statistik emalı aparılmışdır.

**Tədqiqatın metodoloji əsasını** idman məşğələlərində Azərbaycan dövlətçiliyinə sədaqətlə bağlı elmi ideyaların, pedaqoji faktların, hadisə və proseslərin dərk olunması, dəyişdirilməsi, inkişaf etdirilməsi məqsədi ilə

tətbiq olunan elmi-nəzəri müddəaların, tələblərin, metod və vasitələrin məcmusu təşkil edir.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işinin əsas müddəaları aşağıdakı elmi-texniki, elmi-metodiki və elmi-praktiki konfrans və seminarlarda təqdim olunaraq müzakirə olunmuşdur: 1. Fövqəladə Hallar Akademiyasının professor-müəllim heyətinin elmi-texniki və elmi-metodik seminarları, 2012-2015-ci illər. 2. Beynəlxalq elmi-praktiki konfrans, Ukrayna, Çerkasi şəh., 2013-cü il. 3. Beynəlxalq elmi-praktiki konfrans, Rusiya Federasiyası, Moskva şəh., 2013-cü il. 4. ADDA-da doktorant və gənc tədqiqatçıların elmi-texniki konfransı, Bakı, 2015-ci il.

**Tədqiqatın əsas məzmunu** 17 elmi-metodiki əsərdə, o cümlədən 4-ü xaricdəçap olunmaqla nüfuzlu elmi-texniki jurnallar və konfrans materiallarında çap olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, iki fəsil, nəticə və təkliflər, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** dissertasiya mövzusunun aktuallığı əsaslandırılmış və qoyulmuş problemin işlənmə səviyyəsi araşdırılmışdır. Tədqiqatın məqsədi və vəzifələri müəyyən edilmiş, işin elmi yeniliyi və təcrübi əhəmiyyəti formalaşdırılmışdır.

Dissertasiyanın **"Tədqiqatın nəzəri əsasları"** adlandırılan birinci fəsli dörd yarımfəsildən ibarətdir. Bu fəsildə karatenin yaranma tarixi, təşəkkülü və inkişaf mərhələləri təhlil olunur. Şərq əlbəyaxa döyüş növlərinin bariz nümunəsi kimi karatenin hazırda dünyada yayılmış əsas üslublarının xüsusiyyətləri göstərilir.

Azərbaycan Respublikasında karatenin bir idman növü kimi yayılmasının tarixi və idmançılarımızın müxtəlif səviyyəli yarışlarda qazandıqları nailiyyətlər şərh olunur. Azərbycan Ənənəvi Karate do Federasiyasının fəaliyyətinə dair məlumatlar verilir.

Göstərilmişdir ki, Azərbaycanda karatenin təşəkkülü 1978-ci ilə təsadüf edir. Müəllif Azərbaycanda karatenin inkişafını üç mərhələyə bölmüşdür. Birinci dövr Sovetlər Birliyi dövrüdür. Bu dövrdə karate üzrə ilk idman bölmələri yaranmış və bu sahədə maddi-texniki baza, idmançı və məşqçi kadrları hazırlanmasına başlanmışdır.

İkinci dövr Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra başlayır və 2000-ci llədək olan dövrü əhatə edir. Bu dövr Azərbaycanda bütövlükdə idmanın, o cümlədən karatenin geniş yayılması ilə səciyyələn-

dirilir. 2000-ci ildə İndoneziyada keçirilən Dünya çempionatı yarışlarındakı qələbələrimizlə karatenin ölkəmizdə inkişafının müasir mərhələsi başlanır. Bu mərhələdə yığma komandamızın uğurları bu gün də davam edir.

Beləliklə, otuz ildən artıqdır ki, karate Azərbaycanda geniş şəkildə təbliğ olunur və indi kütləvi xarakter almışdır. Hazırda Azərbaycanın 70 rayonundan 50-sində Gənclər və İdman Nazirliyinin rayon şöbələri, o cümlədən Olimpiya İdman Kompleksləri nəzdində karate bölmələri uğurla fəaliyyət göstərir.

2000-ci ildən başlayaraq karate üzrə Azərbaycan çempionatı keçirilir, bu yarışlarda 120-dən çox idmançı ölkə çempionu adını qazanmışdır. 2000-2015-ci illər ərzində karate üzrə Qara kəməri olanların sayı 225 nəfər olmuşdur. Bu dövrdə Dünya çempionu adını qazanmış karateçilərin sayı 25, Avropa çempionatının qızıl medallarına layiq görülən idmançılarımız 26 nəfər olmuşdur. 2015-ci il 1-ci Avropa Oyunlarında isə 4 karateçimiz çempion adını qazanmışdır.

Tədqiqat işində Azərbaycan Ənənəvi Karate do Federasiyasının fəaliyyətinə dair məlumatlar verilmişdir. Federasiyanın Prezidenti Ə.S.Hətəmov Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi, Əməkdar İdman Ustası, Əməkdar Məşqçi və 7-ci Dan Qara Kəmər sahibidir.

Bu fəsildə həmçinin karateçi hazırlığının metod və vasitələri təhlil edilmiş və karatedə təlim-məşq prosesinin planlaşdırılmasına dair ədəbiyyat icmalı aparılmışdır. Karateçi hazırlığında nəzarət sisteminin xüsusiyyətləri təhlil edilmiş və tədqiqatların metodları və vasitələri şərh olunmuşdur.

Müəyyən edilmişdir ki, karate üzrə beynəlxalq səviyyəli idmançıların hazırlanması yeni pedaqoji texnologiyaların işlənməsi, təlim-məşq və yarışlara hazırlıq proseslərinin təkmilləşdirilməsinə dair nəzəri-metodoloji və eksperimental tədqiqatların aparılmasını tələb edir.

Müəyyən edilmişdir ki, karatedə yarış və məşq yüklərinə tələblərin öyrənilməsinə, təlim-məşq prosesinin planlaşdırılmasına, karate fəndləri və fənd kombinasiyalarına, güc və sürət parametrlərinin optimal nisbətlərinin araşdırılmasına yönəlmiş tədqiqatlar kifayət qədər elmi əsaslandırılmamışdır və xeyli ziddiyyətlidir.

Müəyyən edilmişdir ki, təlim-məşq prosesinin təşkili, optimal rejimləri və texniki-taktiki parametrlərinin köhnə metodlarla təyin edilməsi karate üzrə yüksək ixtisaslı və beynəlxalq səviyyəli idmançıların hazırlanması işini ləngidir, milli komandaların beynəlxalq yarışlarda stabil yüksək nəticələr nümayiş etdirməsinə şərat yaratmır.

Təsdiq edilmişdir ki, karate üzrə beynəlxalq səviyyəli idmançıların hazırlanmasının yeni pedaqoji texnologiyalar əsasında təlim-məşq və

yarışlara hazırlıq proseslərinin təkmilləşdirilməsi mühüm elmi və təcrübi əhəmiyyət kəsb edən aktual bir problemdir. Bu problemin həlli yeni pedaqoji texnologiyalar və müasir elmi-tədqiqat metodları əsasında idman göstəricilərinin modelləşdirilməsini və proqnozlaşdırılmasını tələb edir.

Dissertasiyanın dördyarımfəsildən ibarət **ikinci fəsli "Beynəlxalq səviyyəli karateçi hazırlığının pedaqoji sistemi"** adlanır. Bu fəsildə beynəlxalq səviyyəli karateçilərin hazırlanmasında yarışqabağı xüsusi hazırlığın texnologiyaları, idman göstəricilərinin modelləşdirilməsi, təlim-məşq parametrlərinin qiymətləndirilməsi məsələlərinə baxılmışdır. Eksperiment və onun nəticələrinin elmi-pedaqoji təhlili aparılmışdır.

Beynəlxalq səviyyəli karateçilərin hazirlanmasında pedaqoji texnologiyaların tətbiqinin təşkilati-metodiki məsələləri araşdırılmışdır. Karatedə təlim-məşq prosesinin metodoloji müddəalarına əsaslanaraq ümumi və xüsusi hazirlıq səviyyəsinin statistik təhlilinin nəticələri müzakirə olunmuşdur.

Karateçilərin 2 mərhələli mərkəzləşdirilmiş yarışlara hazırlıq prosesi təhlil edilmişdir. Baza mərhələsi 16 gün, o cümlədən 13 təmiz məşq günləri olmaqla davam etmişdir. Bütövlükdə mərhələ ərzində 27 məşq dərsi keçirilmişdir. Məşq işinin ümumi vaxtı 1370 dəq. təşkil etmişdir.

Hazırlıq mərhələsində təlim-məşq vasitələrinin bölgüsü belə olmuşdur: ÜFH vasitələri - 29%; XFH vasitələri - 18,2%; XH vasitələri - 38,6%; YH - vasitələri - 13,9%. Vasitələrin bölgüsünün təhlili yarış hazırlığı vasitələrinin artırılması zərurətini təsdiq etmişdir. Tövsiyə olunan faiz azı 20% təşkil edir.

Xüsusi hazırlığın bütün vasitələrinin, o cümlədən yarış vasitələrinin intensivliyinin statistik təhlili, hazırlıq mərhələsindən asılı olmayaraq, intensivliklə hazırlığa ayrılmış vasitələr arasında müəyyən fərqləri aşkar etmişdir (şək. 1).




| | 1 | 2 | 3 |
|---|---|---|---|
| Baza toplantışı | 169,8 | 168,9 | 172.2 |
| Xüsusi toplanış | 171 | 167,3 | 173,3 |

Şəkil 1. Karate üzrə əsas təlim-məşqlərdə xüsusi hazırlıq vasitələrinin intensivliyinin təhlili:

1- cütlərdə texniki-taktiki hərəkətlərin təkmilləşdirilməsi;
2- əlcəklərdə texniki-taktiki hərəkətlərin təkmilləşdirilməsi;
3- yarış hazırlığı

Beləliklə, karate üzrə yüksək dərəcəli idmançıların hazırlıq prosesinin tədqiqi ilə müəyyən olunmuşdur ki, məşq prosesinin intensivləşdirilməsi heç də həmişə yüksək idman nəticələrini təmin etmir.

Bundan başqa, yüksək intensivlikli məşq rejimləri karateçilərin xüsusi hazırlığının təkmiləşdirilməsinə hətta mənfi təsir göstərə bilər. Çünki aerob mexanizmlərin səviyyəsini yüksəltmədən, idmançının əsəb-əzələ aparatının sürət-güc parametrlərini təmin edən energetik

mexanizmləri təkmiləşdirməyin potensial imkanları əhəmiyyətli dərəcədə azalır.

İlkin pedoqoji eksperimentlərin gedişində yüksək ixtisaslı karateçilərin aşağıdakı göstəriciləri və hazırlığının ümumi cəhətləri araşdırılmışdır. Karateçilərin yarış fəaliyyətinin analitik təhlili əsasında ümumu fiziki və xüsusi fiziki hazırlıq səviyyələrinin optimal parametrləri müəyyən olunmuşdur.

Karateçilərin sürət-güc hazırlığının testlənməsi aparılmış və optimal rejimləri təyin olunmuşdur. Riyazi statistikanın müddəaları əsasında karateçilərin hazırlıq səviyyəsi və yarış nəticələri arasında korrelyasiya əlaqələri müəyyən olunmuşdur.

Pedaqoji eksperimental tədqiqat əsasında belə qənaət əldə olunmuşdur ki, karate üzrə beynəlxalq səviyyəli idmançıların hazırlanmasının yeni pedaqoji texnologiyaları təlim-məşq və yarışqabağı hazırlıq vasitələri və onların intensivliyinin rasional nisbətlərini nəzərdə tutmalıdır. Belə hazırlıq proqramı çərçivəsində sürət-güç və texniki-taktiki hazırlığın inteqral texnologiyası tətbiq oluna bilər.

Bu fəsildə karateçi hazırlığında inteqral pedaqoji texnologiyaların modelləşdirilməsinin əsas müddəaları şərh olunmuşdur. Idman göstəricilərinin modelləşdirilməsində eksperimentlərin planlaşdırılması metodunun tətbiqi xüsusiyyətləri təhlil olunmuşdur. Karateçilərin idman nəticələrinin riyazi modelləşdirilməsi əsasında təlim-məşq prosesinin optimal parametrləri qiymətləndirilmişdir. Əsas pedoqoji eksperimentlərin nəticələri müzakirə edilmişdir.

Pedoqoji eksperimentlərdə, artıq xüsusi hazırlıq mərhələsinin lap ortasında, təcrübi olaraq bütün idmançılar yüksək hazırlıq səviyyəsinə qalxmışdır. Bunu fiziki hazırlıq səviyyəsi (FHS) göstəricisinin yüksək stabil qiyməti (*0,80*-dən böyük) və Rufye indeksinin orta hesabla *6*-yadək düşməsi sübut edir.

İdmançıların fərdi funksional hazırlıq səviyyəsi xarakteristikaları və Rufye indeksinin dinamikası Azərbaycan milli yığmasının timsalında öyrənilmişdir. Cədvəl 1-də hər bir mərhələnin əvvəlində və sonunda nəzarətin nəticələri təqdim olunur. Cədvəl 2-də isə hər bir hazırlıq mərhələsinin sonunda alınmış nəticələr verilmişdir.

Eksperimental hazırlıq proqramının əvvəli və sonunda idmançıların funksional hazırlıq səviyyəsi xarakteristikalarının müsbət dinamikası aşkar edilmişdir. Şək. 2-də milli komandanın yarışqabağı hazırlıq dövründə FHS və Rİ-nin orta qiymətlərinin dinamikası təqdim olunmuşdur.

## Azərbaycan çempionatına hazırlıq zamanı karateçilərin fiziki-hazırlıq səviyyəsinin dinamikası

Cədvəl 1

| Sıra №-si | S.a.a. | 1-ci mərhələ | | II-ci mərhələ | | III-cü mərhələ | | $\chi \pm \sigma$ |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Eynalov Mehman | 0,774 | 0,673 | 0,828 | 0,864 | 0,832 | 0,828 | 0,75 ± 0,073 |
| 2 | Əliyev Fuad | 0,922 | 0,884 | 0,954 | 0,865 | 0,93 | 0,943 | 0,88 ± 0,049 |
| 3 | Bağırov Seyran | 0,663 | 0,747 | 0,787 | 0,846 | 0,835 | 0,887 | 0,79 ± 0,091 |
| 4 | Hətəmov Süleyman | 0,652 | 0,599 | 0,841 | 0,752 | 0,856 | 0,893 | 0,749 ± 0,090 |
| 5 | Şükürov Səbuhi | 0,535 | 0,599 | 0,872 | 0,785 | 0,865 | 0,872 | 0,75 ± 0,104 |
| 6 | Quluzadə İmran | 0,57 | 0,736 | 0,875 | 0,836 | 0,862 | 0,877 | 0,796 ± 0,094 |
| 7 | Fərzəliyev Firdovsi | 0,572 | 0,657 | 0,838 | 0,876 | 0,884 | 0,895 | 0,782 ± 0,99 |
| 8 | Abdullayev Pənah | 0,569 | 0,572 | 0,732 | 0,73 | 0,745 | 0,761 | 0,67 ± 058 |
| Komanda üzrə orta qiymət $\chi \pm \sigma$ | | 0,657 ± 0,13 | 0,683 ± 0,11 | 0,847 ± 0,07 | 0,851 ± 0,06 | 0,869 ± 0,06 | 0,847 ± 0,07 | 0,771 ± 0,07 |

**Azərbaycan çempionatına hazırlıq zamanı Rufye indeksinin dinamikası**

Cədvəl 2

| Sıra №-si | S.a.a. | 1-ci mərhələ | | II-ci mərhələ | | III-cü mərhələ | | $\chi \pm \sigma$ |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Eynalov Mehman | 5,6 | 5,7 | 5,8 | 5,8 | 3,8 | 3,8 | 6,0 ± 2,63 |
| 2 | Əliyev Fuad | 6,4 | 7,4 | 7,4 | 3,2 | 5,6 | 3,8 | 5,1 ± 1,28 |
| 3 | Bağırov Seyran | 6,5 | 6,6 | 7 | 5 | 5 | 6,2 | 5,5 ± 0,85 |
| 4 | Hətəmov Sülüyman | 7,2 | 7,5 | 7,7 | 5,6 | 5,6 | 6,2 | 6,5 ± 0,64 |
| 5 | Şükürov Səbuhi | 7,5 | 7,7 | 7,7 | 5 | 7,4 | 6,8 | 6,6 ± 0,82 |
| 6 | Quluzadə İmran | 6,5 | 6,8 | 7,2 | 6,2 | 6,2 | 6,2 | 6,3 ± 0,67 |
| 7 | Fərzəliyev Firdovsi | 6,5 | 6,7 | 7,1 | 6,2 | 6,0 | 4,4 | 5,7 ± 0,95 |
| 8 | Abdullayev Pənah | 8,5 | 8,9 | 8,3 | 8,5 | 8,7 | 7,4 | 8,7 ± 1,34 |
| Komanda üzrə orta qiymət $\chi \pm \sigma$ | | 6,8 ± 1,01 | 7,1 ± 1,12 | 7,2 ± 0,87 | 5,6 ± 1,85 | 6,0 ± 1,71 | 5,6 ± 1,26 | 6,3 ± 1,26 |




Şək. 2. Yarışqabağı hazırlıq dövründə idmançıların funksional hazırlıq səviyyəsi və Rufye indeksinin dinamikası

İdmançıların funksional hazırlığının müsbət nəticələri həm də özünü xüsusi sürət-güc hazırlığı xarakteristikalarında büruzə vermişdir. Sürət-güc keyfiyyətlərinin göstəricisi - sürət-güc indeksinin (SGİ) stabil artımı müşahidə edilmişdir. Təkmilləşdirilmiş hazırlıq proqramının səmərəliliyi Azərbaycan çempionatında idmançıların çıxışlarının nəticələri ilə təsdiqlənmişdir.

Beləliklə, sürət-güc və texniki-taktuku hazırlıq metodları və vasitələrinin təkmilləşdirilməsinin inteqral texnologiyası 2015-ci ilin dünya çempionatına karateçilərin hazırlıq prosesində tətbiq olunmuşdur. Bu yarışlarda Azərbaycan millisi komanda hesabında 1-ci yer tutmuş, fərdi yarışlarda isə karateçilərimiz 1 qızıl, 2 gümüş və 3 bürünc medal qazanmışlar.

Dissertasiya ilə bağlı alınan **nəticələr** aşağıdakı şəkildə ümumiləşdirilmişdir:

1. Müəyyən edilmişdir ki, hazırda karateçilərin təlim-məşq prosesi və metodları yüksək intensivliyə malikdir və idmançıların orqanizminin ancaq qlikolitik enerji təminatı mexanizminin ikişafına yönəlmişdir. Təlim-məşq prosesi və metodları karateçilərin sürət-güc keyfiyyətlərinin inkişafını və beynəlxalq yarışlarda yüksək idman nəticələrini təmin etmir.

2. Təsdiq olunmuşdur ki, beynəlxalq səviyyəli karateçilərin səmərəli yarış hazırlığının təmin edilməsi mükəmməl texnik-taktiki hərəkətlər, sürətli və güclü fənd və onların kombinasiyalarının istifadəsinə əsaslanmalıdır və intervalı *17± 3* saniyəni aşmayan hücum hərəkətləri və azı *16 ± 4* saniyəlik fəndlərdən ibarət texniki-taktiki hərəkətlərin arsenalından ibarət olmalıdır.

3. Təyin olunmuşdur ki, səmərəli yarış fəaliyyətinin model səviyyəsinə qaldırılması və beynəlxalq səviyyəli karateçilərin yetişdirilməsində vacib amil xüsusi sürət və güc hazırlığıdır *(r=0,67).* Onun səviyyəsinin obyektiv qiymətləndirilməsi üçün sürət-güc indeksi (*SGİ)* göstəricisi təklif olunur, bu indeksin model səviyyəsi *2,8ş.v.* təşkil edir. SGİ-nin faktiki qiyməti yüksək səviyyəli idmançılar üçün 1,8-dən 2,6-dək diapazonda dəyişə bilər.

4. Beynəlxalq səviyyəli karateçilərin hazırlıq prosesini və sürət-güc keyfiyyətlərini təkmilləşdirməyin səmərəli metodu kimi xüsusi fiziki və texniki-taktiki hazırlığın inteqral pedaqoji texnologiyası təklif olunmuşdur. Qeyri-mərkəzləşmiş hazırlıq şəraitində XFH və TTH vasitələrinin nisbəti baza və xüsusi hazırlıq mərhələsi üçün *50% : 50%* tövsiyə olunmuşdur. Baza mərhələsində hazırlıq vasitələrinin intensivliyi aerob məşq zonasında

yerləşməli, xüsusi hazırlıq mərhələsində isə aerob-anaerob güc səviyyəsinədək qaldırılmalıdır.

5. Yarışqabağı makrodövrdə təlim-məşq prosesinin tədqiqatları göstərmişdir ki, qeyri-mərkəzləşmiş hazırlığın inteqral pedaqoji texnologiyası baza hazırlıq mərhələsinin müddətini 21 gündən və məşq dərslərinin vaxtını $125 \pm 15$ dəq-qən az olmayaraq modelləşdirməlidir: xüsusi hazırlıq mərhələsinin müddəti azı 16 gün, məşq dərslərinin vaxtı $90 \pm 15$ dəq.-dən az olmamalıdır.

6. Baza hazırlıq mərhələsində sürət-güc və texniki-taktiki keyfiyyətlərin inteqral inkişafı üçün xüsusi fiziki hazırlığın alqoritmi təklif olunmuşdur: baza mərhələsində - həftəlik mikrodövrün 1-ci günü, 3-cü günü- ştanqla,qantel və rezinlə, 5-ci gün cütlükdə tapşırıqlar yerinə yetirilməlidir. Texniki-taktiki ustalığın təkmilləşdirilməsi fərdi proqramlar üzrə aparılmalıdır.

7. Yüksək ixtisaslı karateçilərinsürət-güc keyfiyyətləri və texniki-taktiki hazırlığının inteqral pedaqoji texnologiyası əsasında yarışqabağı hazırlığın proqramı eksperimental əsaslandırılmışdır. Pedoqoji eksperimentlərin reallaşdırılması gedişində idmançıların funksional imkanlarının artması müşahidə olunmuşdur: $FHSp \prec 0,01$, Rufye indeksi $p \leq 0,01$ olmuş və *SGİ* ilkin səviyyəyə nəzərən *10%* artmışdır. Karateçilərin funksional imkanları və sürət-güc keyfiyyətlərinin artımı milli komandanın yarış nəticələrinin yüksəlməsini təmin etmişdir.

8. Müəyyən olunmuşdur ki, beynəlxalq səviyyəli karateçilərin hazırlanmasında fiziki keyfiyyətlərin inkişafı texniki təkmilləşmə prosesi ilə qırılmaz əlaqədə getməlidir. Odur ki, yarış fəaliyyətinə yaxın strukturda vacib hərəkət keyfiyyətləri və qabiliyyətlərinin inteqral təkmilləşdirilməsinə yönəlmiş pedaqoji tapşırıqlar istifadə olunmalıdır.Aparılmış eksperimental tədqiqatlar karateçilərin sürət-güc hazırlığı sistemini inteqral texnologiya əsasındarasionallaşdırmağa imkan vermişdir.

Beləliklə, tədqiqat nəticəsində alınan elmi və təcrübi nəticələr fərziyyədə irəli sürülən müddəaların doğruluğunu sübut edir. Beynəlxaq səviyyəli karateçilərin hazırlanmasının inteqral pedaqoji texnologiyaları karate üzrə milli komanda və FHA-nın karate klubunda tətbiq edilmişdir.

Dissertasiyanın əsas elmi və təcrübi nəticələri aşağıdakı **elmi məqalə və konfrans materiallarında** çap olunmuşdur:

1. Karate-Do (Karate-Do üzrə ilkin vərdişlər). Metodiki vəsait. Bakı, FHA, 2011, 54 səh.

2. Karate-Do (Kata-formal hərəkətlər). Metodiki vəsait. Baki, FHA, 2011, 41 səh.

3. İdman, fiziki və qəza-xilasetmə hazırlığı kafedrasının Fiziki tərbiyə fənni üzrə bakalavr pilləsi üçün tədris proqramı. Bakı, FHA, 2012, 10 səh.

4. Karate-Do özünümüdafiə fəndləri. Metodiki vəsait. Bakı, FHA, 2011, 82 səh.

5. Использование статистических методов приоценке результатов спортсменов международного класса на различных соревнованиях / Ukrayna FHN Yanğın Təhlükəsizliyi Akademiyası. Çerkası, 2013, II hissə, s.129-130

6. Hündürlükdə qəza-xilasetmə işlərinin aparılması zamanı istifadə olunan alpinist ləvazimatlarının köhnəlməsi: mühafizə tədbirləri / Təbii fəlakətlərə məruz qalan regionlarda dayanıqlığın yüksəldilməsi, icmaların fövqəladə hallara hazırlanması və əhali arasında risk mədəniyyətinin yüksəldilməsi" elmi-praktiki konfrans, Azərbaycan Memarlıq və İnşaat universiteti, Bakı, 2012, 5 səh.

7. Разработка эффективных методов и способов тактики выполнения комбинации приемов в виде спорта каратэ для курсантов академии министерства почрезвычайным ситуациям / Материалы международной научно- практической конференции, Moskva, 22 мая 2013, с.245-249.

8. Azərbaycan Respublikasında karate idmanının formalaşması və inkişaf tarixi // Azərbaycan Dövlət Dəniz Akademiyası, 2013, №2, səh. 161-166

9. Некоторые аспекты совершенствования физической подготовки в единаборствах // Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Elmi Xəbərləri, Bakı, 2013, № 1, səh. 31-33

10.Разработка эффективных методов и способов тактики выполнения комбинации приемов в виде спорта каратэ // Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Elmi xəbərləri, Bakı, 2013, № 1, səh. 45-51

11. Исследования и статистическая оценка готовности спортсмена к соревнованиям // Azərbaycan Dövlət Dəniz Akademiyası, Bakı, 2014, № 2, səh. 178-182

12.Некоторые аспекты применение методов математической статистики при оценке показателей спортсменов международного класса // Теория и практика физической культуры и спорта, Moskva, 2014, № 3, с. 45-48

13.Методика применение различных способов измерения при оценке показателей высоко квалифицированных спортсменов

международного класса // Теория и практика физической культуры и спорта, Moskva, 2014, № 5, с. 60-63

14.Исследование влияния основных параметров каратэ на эффективность силы удара ноги спортсменов при обработке различных приемов с применением методов математической статистики // Azərbaycan Dövlət Dəniz Akademiyası, Bakı, 2015, № 1, с. 70-79

15. Использование методов многофакторного планирования экспериментов при оценке показателей высококвалифицированных спортсменов международного класса // Теория и практика физической культуры и спорта, 2015, № 5, с. 43-57

16. Моделирование тренировочного процесса по каратэ при подготовке спортсменов международного класса // Теория и практика физической культуры и спорта, 2015, № 2, с. 49-59

**А.С.ГАТАМОВ**

# НОВЫЕ ПЕДАГОГИЧЕСКИЕ ТЕХНОЛОГИИ ПОДГОТОВКИ СПОРТСМЕНОВ МЕЖДУНАРОДНОГО УРОВНЯ ПО КАРАТЭ

## РЕЗЮМЕ

Диссертация посвящена к разработке новых педагогических технологий подготовки спортсменов международного уровня покаратэ. Целью работы является разработка научно-обоснованных предложений и рекомендаций по совершенствованию учебно-тренировочного процесса подготовкика ратистов международного уровня для повышения спортивных результатов. Диссертация состоит из введения, 2 глав, 8 подглав, основных выводов и списка использованной литературы.

Во введении обоснована актуальность темы, указаны обьект и предмет, а также цель и задачи исследований. Сформулированы научная гипотеза и теоретико-методологические основы. Приведены методы исследования, теоретическое и практическое значения работы. Представлены основные положения выносимые на защиту.

В первой главе рассмотреныистория возникования и эволюция каратэ в мире, изложены особенности различных видов восточных единоборств. Анализирована история развития каратэ вАзербайджана и достижения спортсменов в различных соревнованиях. Исследованы теоретико-методологические основы разработки новых педагогических технологий подготовки спортсмено в международного уровня по каратэ. Приведены особенности обьекта, методов и средств обработки результатов исследований.

Во второй главе рассмотрены методы разработки новых педагогических технологийи оценка эффективности тренировочного процесса при подготовке каратистов международного уровня. Изложены особенности предложенных методов, моделей и выдвинутых положений, полученные на основе системного и статистического анализа. Приведены результаты моделированияучебно-тренировочного и соревновательного процессов и обсуждению результатов педагогических экспериментов подготовки каратистов международного уровня.

В заключении приведены научно-обоснованные предложения и рекомендации по внедрению результатов исследований и совершенствованию процессаподготовкикаратистов.

**A.S.HATAMOV**

# NEW TEACHING TECHNOLOGIES IN TRAINING OF KARATE ATHLETES OF INTERNATIONAL LEVEL

## SUMMARY


The thesis deals with the development of new teaching technologies in training of karate athletes of international level. The aim of the thesis is to develop a science- based proposals and recommendations on improving the training process at preparation of international level karatekas for enhancing athletic performance. The thesis consists of an introduction, 2 chapters, 8 sub-chapters, the main conclusions and list of bibliography cited.

In the introduction actuality of the topic was based, object and subject of the research, as well as the purpose and objectives of the research were shown. A scientific hypothesis and theoretical and methodological foundations were stated. The methods of the research, theoretical and practical significance of the work were shown. The basic foundations for defense of thesis were submitted.

In the first chapter the history of the origin and evolution of karate in the world was described, features of various kinds of martial arts were stated. The history of karate in Azerbaijan and achievements of athletes in different competitions were analysed.

The second chapter deals with theoretical and methodological foundations of development of new teaching technologies in training of karate athletes of international-level. Peculiarities of the object, methods and means of the processing of research results were indicated.

In the third chapter methods of the development of new teaching technologies and performance evaluation of a training process in preparation of karatekas of international level were considered. The features of proposed methods, models and submitted issues obtained through a systematic and statistical analysis were shown.

The fourth chapter is dedicated to modelling the training and competitive processes and discussion of the results of teaching experiments of preparation of karatekas of international level.

The fifth chapter contains research-based proposals and recommendations for the implementation of research results and improvement of the training process of karatekas.

Министерство Образования Азербайджанской Республики

Азербайджанский Государственный Педагогический Университет

*На правах рукописи*

**АХМЕД СУЛЕЙМАН ОГЛЫ ГАТАМОВ**

# НОВЫЕ ПЕДАГОГИЧЕСКИЕ ТЕХНОЛОГИИ ПОДГОТОВКИСПОРТСМЕНОВ МЕЖДУНАРОДНОГО УРОВНЯ ПО КАРАТЭ

**5804.01 – Общая педагогика, история педагогики и образования**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**БАКУ-2016**